Maddi dəyərlərimizin bir parçası olan yaşayış evləri milli mədəniyyətimizin əsas struktur elementlərindən olaraq etnoloji araşdırmaların aktual məsələlərindən hesab olunur. Yaşayış evlərinin etnoqrafik baxımdan araşdırılmasının mühüm cəhətlərindən biri onların tiplərinin müəyyənləşdirilməsidir.

XVIII-XIX əsrlər arası geniş vüsət tapmış yaşayış evlərinin struktur quruluşu, onun konstruktiv həlli və formayaranma xüsusiyyəti Azərbaycanın milli ənənələri üzərində qurulan yaşayış evlərinin iç məkan təşkili və avadanlıqlarının tədqiq olunması çox əhəmiyyətlidir [10]

Azərbaycan xalq yaşayış evləri bir sıra xüsusiyyətlərə görə təsnifatlaşdırılır. Məsələn, əhalinin həyat tərzinə görə (daimi və müvəqqəti evlər); inşaat texnikası və tikinti materiallarına görə; plan quruluşuna görə; dam örtüyünün formasına görə [7].

Etnoqrafik ədəbiyyatda xalq yaşayış evləri qaradam, möhrəli, kərpic, daş evlər, şirvani, tatı ev, ağ otaq, tənəbi ev, imarət, aynabəndli ev, malikanə və sair adlarla tanınır[4].

Xalq yaşayış evi tiplərinin yaranmasında ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat materialları, tikinti texnikası, ictimai həyat, ailə-məişət, eləcə də dünyagörüş və inanclar sistemi müəyyən rol oynamışdır. Məhz bu amillərin təsiri ilə evlər

müxtəlif tiplərdə tikilib, təbii mağaralardan müasir yaşayış evlərinə kimi uzun bir tarixi təkamül prosesi keçmişdir [7].

Yaşayış insan fəaliyyətinin yaratdığı mükəmməl məkan olduğundan həmişə digər tikinti tiplərindən fərqli olmuşdur. Arxeoloji qazıntılar və tarixi materiallar göstərir ki, ilkin sivilizasiya quruluşunda yaşayış funksional təyinatla yanaşı insanın sosial mədəni tələblərini ödəyən bir məkan olmuşdur. Bu üzdən, onların formalaşmasında müdafiə xarakteri daşıma cəhəti, təbii kataklizimlərdən qorunmaq cəhəti, həm də rahatlığın təmin olunma cəhəti önəmli hesab olunmuşdur [1].

Azərbaycan əhalisinin yaşayış evləri mahiyyətcə, məzmunca və tikinti materiallarına görə bir-birindən o qədər də fərqlənməyib. Yaşayış evlərinin tikintisində yüz illərdən gələn tikinti təcrübəsi, inşaat materialları mühüm rol oynayıb.

Orta əsrlərin tarixi şəhərlərində inşaa olunmuş yaşayış evlərinin bu günə qədər gəlib çatmış nümunələrinin timsalında, xüsusilə, Lahıc, Ordubad, İçərişəhər, Şəki və digər şəhərlərdə xalqın xarakterini, həyat və məişət tərzini ifadə edən xalq memarlığında qazanılan bilik və təcrübələr nəsildən-nəslə ötürülərək inşaat ənənələrinin zənginləşməsində mühüm rol oynamışdır [3].



Şəkil 1. Şəki xan sarayının interyeri

Taxtadan oyma naxışlı dekorativ taxtabəndlər, müxtəlif rəngli şüşələrlə örtülmüş vitrajlar, zərif işlənmiş şəbəkələr, zəngin bəzəkli eyvan və balkon məhəccərlərinin istifadə olunması yaşayış binalarına təqdirəlayiq bir görkəm vermişdir. Memarlıq-planlaşma xüsusiyyətinə malik olan Şəki Xan sarayını, Şəkixanovların evini, Qarabagda Pənah xanın sarayını, Şuşada Zöhrabbəyovların imarətini, Mehmandarovların, Əsəd bəy və Natəvanın evlərini, Naxçıvanda Naxçıvan xanlarının evini, Lənkəranda Tuğra xanımın və İsa bəyin evlərini, habelə digər qiymətli abidələri xalq memarlığına bir nümunə kimi göstərmək olar [5,

17, 16]. .

Yaşayış tikililərinin tutumu və rahatlığı önə çəkilərək forma axtarışları daim önəmli olmuşdur. Dövrün müxtəlif mərhələlərində yaşayış tikililərinin formaları dəyişmiş, subyektiv və obyektiv səbəblərdən onlar üçün müxtəlif tipoloji xüsusiyyətlər tapılmışdır. Məsələn, şəhərlərdə sıravi yaşayış evlərinin tikintisi kiçik qapalı kvartal təşkil edərək küçələri formalaşdıran 2-3 mərtəbəli şəhər tipli evlər, sonralar isə fundamental ortamərtəbəli mülklər də daxil olmaqla tədricən XX əsrin 30-cu illərindən sonra daş evlər mövcud idi. Sonrakı dövrlərdə isə panel və karkas tipli binaların meydana gəlməsi artıq memarlıq-planlaşma və konstruktiv həllinə öz təsirini göstərmişdir [8, 2].

XIX əsrin ikinci yarısından yaşayış evlərinin tikintisi sürətlə inkişaf etməyə başlamışdı. Ölkədə baş verən inkişaf ilə əlaqədar olaraq əhalinin sosial-məişət şəraitində də bir şox dəyişikliklər baş verirdi. Bu dövrdə ənənəvi ev tiplərində bir sıra konstruktiv elementlərin - ləmə, balaxana, tənəbi, eyvan, aynabənd, külafirəngi, mətbəx, dəhliz və s. yaranması yaşayış binalarının tikintisinə kompleks yanaşmanı tələb edirdi.

Şəkil 2. Kənd yaşayış evinin interyeri

Şəkil 3. Kənd evinin taxça və buxarısı

XIX əsrin əvvəllərinə qədər Azərbaycanın xalq yaşayış evlərinin iç məkan xüsusiyyəti özünü Şərq memarlığına xas olan sadəlikdə göstərirdi. Lakin, sonrakı mərhələlərdə yaşayış evlərinin forma və plan quruluşundan və tipindən asılı olaraq interyerdə müvafiq dəyişikliklər baş vermişdi. Evin daxili sahmanında baş verən dəyişikliklərdə xalqın sosial-iqtisadi və mədəni səviyyəsi, təsərrüfat fəaliyyətinin istiqaməti, xalq ənənələri, maddi-texniki imkanları, iri şəhərlərə yaxın yerləşməsi və digər amillər həlledici rol oynamışdı [6, 9].

XIX-cu əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan xalqının böyük əksəriyyətinin yaşayış evləri xarici görünüşcə sadə olsa da, interyerləri çox əlverişli plan bölgüsünə malik idi. Onların bəziləri hələ də çoxfunksiyalılığını saxlayır, təsərrüfat məqsədləri və məişət avadanlıqları üçün istifadə edilir. Bu barədə XIX əsrin əvvəllərinə aid bir məlumatda deyilir: “Adətən, belə evlərə daxil olduqda ilk öncə adamın gözünə bir-birinə söykənmiş mis qabların uzun cərgəsi, sonra yan-yana qoyulmuş xalçalar, keçələr və barxana dəyir”. Evin baş divarının

kor oyuğunda ocaq qalayıb yemək hazırlamaq üçün buxarı həm də qızdırıcı funksiyasını daşıyırdı [4, 7].

Azərbaycanın bəzi bölgələrində yaşayış evlərində kiçik otaqlardan birini mətbəx kimi ayırmaq ənənə halını alırdı. Həmçinin mətbəxin yaşayış otağından ayrılması ənənəvi inşaat mədəniyyəti tarixində mühüm mədəni irəliləyiş hesab olunurdu. Bu da öz növbəsində mətbəxdə gedən proseslərin mənzilin digər yerləşgələrindən təcrid olunmasına imkan verirdi. Azərbaycanın xalq yaşayış evlərinin xarakterik xüsusiyyətlərindən biri də, regional yerləşmədən asılı olmayaraq qonaq üçün ayrılan otağın böyük mahiyyət daşımasıdır. Məhz, bu otaqlar öz bədii tərtibatına və avadanlıq yığımına görə ən yadda qalan otaq olub, bu gün də öz mahiyyətini saxlamaqdadır [1, 4, 7].

İmkanlı insanların evlərində daxili səliqə-sahman daha fərqli idi. Burada müxtəlif məqsədlər üçün düzəldilmiş divar aşırımlarında taxça, zeh, ləmə, camaxatan, divar dolablarının və buxarıların verilməsi müşahidə olunurdu.

Şəkil 4. Hacı Zeynalabdin Tağıyrvin evinin interyerinin görünüşləri

Ailə məişəti üçün səciyyəvi olan bütün proseslər, o cümlədən, yemək, yatmaq, dincəlmək, ev məişətinin işləri ilə məşğul olmaq və s. döşəmə üzərində həyata keçirildiyindən onun səliqə ilə düzəldilməsinə xüsusi fikir verilirdi. Adətən, döşəmə saman qatılmış palçıqla qalın layda suvanır, suvaq quruyandan sonra onun üzərinə və divarlara ağ gildən şirə çəkilirdi [110, səh. 218-227].

Sadə evlərdə şirələnmiş döşəməyə ev sahibinin maddi imkanından asılı olaraq keçə, palas, cecim, həsir, kilim, xalça, gəbə və s. döşənir, üzərinə aşılanmış qoyun dərisindən ayaqaltılar salınır, mütəkkə, balış, döşəkçələr düzülürdü. Bəzən, evin divarlarına yerdən 50-60 sm. hündürlükdə həsir çəkilirdi. Varlı evlərdə bu tərtibat daha zəngin olurdu. Divarlara xalçalar asılır, üzərinə müxtəlif həndəsi və nəbati naxışlarla bəzədilmiş bədii tikmələr bəndlənirdi [1, 7].

Yaşayış binalarının interyerlərindəki avadanlıqlar sırf utilitar funksiya daşımasına baxmayaraq, eyni zamanda bədii dekorativ xüsusiyyətlərə malik olurdu. Məsələn, qab-qacaq dolablarını orta əsrlərdə divarların yuxarı yarusunda verilən açıq rəflər əvəz edirdi. Eyni zamanda buxarı öz ornamentallığı ilə divardan irəli çıxan müstəvi tərtibatı hesabına kiçik

əşyaların yığılma yeri idi. Divar səthlərində yerləşən və bu gün mebelləri əvəz edən konstruktiv elementlərin xarakterik cəhətlərindən biri də interyerdə genişlik yaratmaq, həm də, onların azad kompozisiya həllərini təmin etməkdir [13, 8].

Azərbaycanın müxtəlif regionlarının yaşayış evlərinin interyerlərini oxşar edən cəhət onların ənənəvi istifadə forması, ölçü nisbəti, mebeli əvəz edən taxça və camaxatanların müəyyən qanunauyğunluğa tabe olaraq sistemli düzülüşü idi. Onlar interyerin görkəminə vizual qavranılma cəhətdən müsbət təsir göstərirdi. Daha çox dekorativlik diminant otaq olan qonaq otağına verilirdi. Həmçinin qonaq otağının ümumi ölçüsü böyük götürülürdü ki, ailə bir yerə yığışan zaman onun sahəsi ailəyə kifayət etsin.

Qeyd etmək lazımdır ki, xalq yaşayış evləri Azərbaycan regionlarının yaşayış məntəqələrinin əksər tikililərini təşkil etdiyi halda Bakının kapitalizm dövründə mövcud olan kütləvi yaşayış evləri kiçik kvartallarda, küçəarası komplekslərdə qruplaşırdı. Çox az sayda binalar orta mərtəbəli idi [11, 14].

Kapitalizmin inkişaf etməsi şəhərsalmaya öz təsirini göstərirdi. Bu, Bakının yüksək səviyyəli tikinti təcrübəsində də əks olunmaqda idi. Belə ki, sosial-iqtisadi münasibətlər inkişafında XIX əsr və XX əsrin əvvəllərinə xas olan yaşayış binaları artıq öz zəngin və müxtəlif memarlıq-planlaşma üsulları ilə fərqlənirdi [2].

Yaşayış bina tiplərinin formalaşmasına bir çox amillər öz təsirini göstərirdi. Məsələn, evin planının fərqliliyi; əraziyə uyğun tikinti üsullarının seçilməsi; binanın tipinə görə plan quruluşunun seçilməsi; tikintinin iqtisadi səviyyəsinin, relyef və iqlim şəraitinin nəzərə alınması; regiona müvafiq memarlıq planlaşma xüsusiyyətinin təyin olunması.

Yaşayış evlərinin quruluşuna və formalarına iqlim şəraitinin təsirinin olduğunu da müşahidə etmək olar. Evlərin tikilməsi zamanı ilk növbədə küləyin istiqaməti, yağıntının növü və miqdarı nəzərə alınırdı. Adətən, evlərin istiqaməti günçıxan tərəfə baxırdı. Bu haqda tarixçi İsmayıl Zeynalov yazır ki, əgər evin yönümü qərbə tərəf baxarsa, Günəş zenit nöqtəsini keçdikdən sonra şüası qərb səmti döyəcləyər və nəticədə, evin içi bürkü olar. Evlərin istiqaməti həmçinin dini xarakter də daşıyırdı. Yəni, evlər üzü qibləyə tikilirdi [4, 7].

Yaşayış evləri ictimai münasibətlərin əsas və mühüm obyekti hesab olunur. İnsanın məqsədyönlü fəaliyyətinin əsasını onun maraqları və ehtiyacları təşkil edir. Ehtiyac ümumilikdə cəmiyyətin həyat fəaliyyətinin təşkili üçün bioloji, sosial, mədəni, ideoloji tələblərin cəmini əhatə edir. Həmçinin yaşayış mühitinin təhlükəsizliyi insanın komfortluğunun və rahatlığının təminatçısı kimi çıxış edir. İnsanın yaşayış mühitinin təhlükəsizliyi onun fiziki, sosial, mənəvi və xarici faktorlardan tam mühafizə olunmasını təmin edir.

İnteryer öz dövrünün üslubunu əks etdirməklə yanaşı insan şüurunu formalaşdıraraq

özünə yeni yanaşma tərzi tələb etmişdir. İnteryerin keyfiyyət göstəricisi və onun bədii tamlığı əksər hallarda funksional dekorativ mahiyyəti olan materialların məharətlə istifadə edilməsindən asılı olub. Bu, mebellərin, üzlük parçaların, işıqlandırma çihazlarının, şəbəkəşəkilli dekorativ elementlərin, vitrajların, ağac oymaların, müstəvi mebel hesab olunan xalça, kilim və digər avadanlıqların iç məkanda təqdimat forması idi [17, 8].

Şəkil 5. Sandıqlar

Azərbaycanın meşə massivləri ilə zəngin olan bölgələrində yaşayış binalarının tikintisində, dekorativ elementlərin hazırlanmasında ağac materiallarına üstünlük verilirdi. Ağac cinslərinin müxtəlifliyi də elementləri dekorativ cəhətdən bir-birindən fərqləndirirdi. Ənənəvi yerli sənətkarlıq nümunələri olan bu memarlıq elementləri və hissələri şəhər və kənd yaşayış evlərinin həm eksteryerlərinə, həm də interyerlərinə xüsusi bir görkəm verirdi [5, 1].

Azərbaycanın yaşayış binalarının memarlığı və interyerin tərtibatı öz dekorativ zənginliyi ilə seçilirdi. Ağacdan hazırlanmış məmulatlarla yanaşı metaldan və digər materiallardan hazırlanmış dekorativ bəzək elementləri geniş istifadə olunurdu. Bunu sandıqların tərtibatında daha yaxşı müşahidə etmək olur.

Qafqaz, Cənubi Qafqaz və Azərbaycan xalq yaşayış evlərinin təsnifatının tədqiqi məsələsi ilə tədqiqatçılar hələ XIX əsrdən məşğul olsalar da, bu məsələ XX əsrin ortalarından başlayaraq daha ciddi problem kimi qarşıya çıxmışdır. Bir çox Azərbaycan və xarici ölkə alimləri tərəfindən istifadə olunan inşaat materialları, evlərin mərtəbəliliyi, dam örtüklərinin formaları, plan quruluşu, daxili məkan avadanlıqları və s. M.N.Efendiyev, Ə.K.Ələkbərov, Q.T.Qararaşlı, P.P.Nadeykin, D.E.Zubayev, A.E.Lyaster və digərləri tərəfindən tədqiq olunmuşdur. Həmçinin T.Q.Səlimov, A.M.Mustafayev, Y.A.Rüstəmov və Ə.B.Salamzadə tədqiqat obyekti kimi Qarabağ, Şəki-Zaqatala və Naxçıvan yaşayış evlərinin memarlıq konstruktiv və mobil evlərin əşya tərkibinin təsnifatını araşdırmış və XVIII-XIX əsrlərdə Azərbaycanın yaşayış binalarının bədii tərtibatında avadanlıqlarla birlikdə rolunu göstərmişlər. Xüsusilə, A.M.Mehdiyevin yaşayış evləri üzrə böyük və əhatəli tədqiqatı xüsusi əhəmiyyətə malikdir. O, təkcə yaşayış evlərinin memarlıq və planlaşma strukturu haqqında deyil, kompleks şəkildə onların ayrı-ayrı reqionlara xas olan özəlliklərini üzə çıxararaq təhlil etmişdir.

Arxiv materiallarından məlum olduğu kimi Avropa ölkələrindən dəvət olunmuş əcnəbi memarlar binaların layihələndirilməsi və interyerin həlli zamanı şərq memarlıq formalarına və avadanlıqlarına ehtiyatla yanaşmışdılar.

M.Ə.Useynov və Ə.B.Salamzadə tərəfindən «Azərbaycanın memarlıq tarixi» kitabında XVIII-XIX əsrlərin yaşayışına aid təfsilatlı formada aparılmış araşdırmalarında və sonradan Ş.Fətullayevin «XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın memarlıq şəhərsalması» kitabında yaşayış evlərinin xüsusiyyəti, milli motivləri və ənənələri əsasında XX əsrə aid olan yaşayış binalarının iç məkan təşkilində mebel və avadanlıqların müəyyən prinsipləri üzə çıxardılıb və müasir binalarda təzahürü müəyyənləşdirilmişdir [9, 3].

Memarlığın məkan və əşya təşkili əsrlər boyu bir çox faktorların təsirindən asılı olaraq yaşayışın inşaat spesifikasını, memarlıq elementlərinin istifadə zəruriliyini, interyerdə mebellərin formayaranmasını və onların bədii tərtibat xarakterini müəyyən etmişdir. Məhz, Azərbaycanın etno-mədəni irsi və əldə olunan nailiyyətlər onun milli ənənələrini və mənəvi dəyərini müxtəlif bədii-memarlıq ifadələrində əks etdirmiş və nəticə etibarı ilə əsrlərlə yığılmış baza əsasında yaşayışın milli xüsusiyyətlərini formalaşdırmışdır.

Cəmiyyətin mədəniyyətinin inkişaf mərhələləri interyer mühitinin təşkilinin müəyyən qanunauyğunluqları və bu mühitdə incəsənətin sintezi ilə xarakterizə olunur. Müasir dövrdə memarlıq və interyer yeni ifadə vasitələrinin axtarışındadır. O, mürəkkəb problemlərin həllini tapmağa və ənənəvi mədəniyyəti qoruyub saxlamağa çalışır. İnsan tarix boyu daim komforta və gözəlliyə meyl etmiş, ətrafında maddi və mənəvi aləm yaratmaqda maraqlı olmuşdur. Süni yaradılmış mühit insanın fiziki tələbatını təmin etsə də, ənənəvi mədəniyyətə söykənən estetik mühit isə onun mənəvi həyatının bir ehtiyacı olmuşdur.

İnteryer insanın gündəlik həyat fəaliyyəti zamanı onu əhatə edən yüksəkkeyfiyyətli, estetik ifadəli əşya-sahə mühiti çərçivəsində rahat və komfortlu şərait yaratmaqla yanaşı cəmiyyətdə gedən inkişaf və dəyişikliklərə uyğun olaraq əhalinin sosial tələblərinə cavab verməlidir. Bu səbəbdən son illər yaşayış mühitinin estetik həlli problemi daha aktualdır. Problemin əsas aspektləri insanın mövcud olduğu mühitin mükəmməlləşdirilməsi, bədii ifadəliliyinin verilməsi və milli-mədəni ənənələrinin saxlanılmasındadır. Müasir dövrdə innovasiya texnologiyalarının və insanı əhatə edən ənənəvi əşya-sahə mühitinin harmonik qarşılıqlı əlaqəsinin yaradılması öz aktuallığını təsdiq edir.

Ədəbiyyat

1. Quliyeva N.M. XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti. Bakı:Elm,2011,240 s.
2. Fətullayev-Foqarov Ş. Bakının memarlıq ensiklopediyası. Bakı: “Şərq-Qərb”, 2013, 528 s.
3. Fətullayev-Foqarov Ş. XIX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. Bakı: “Şərq-Qərb”, 2013, 480 s.

4. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti. Bakı: Şərq-Qərb, 2010, 424 s.
5. Yusifova K.R. Dekorativ tətbiqi sənət növlərinin Azərbaycan memarlığında rolu //Beynəlxalq elmi-praktik konfrans, Bakı: 2014, s.19-20.
6. Ализаде Г.М. Народное зодчество Азербайджана и его прогрессивные традиции. Баку: АН Азерб. ССЗ, 1963, 228 с.
7. Мехтиев А.М. Народное жилище Азербайджана. Тебриз: 2001, 334 с.
8. Юсифова К.Р. Экстерьеры и интерьеры жилых домов на рубеже XIX-XX вв. в Баку. Москва: «Жилищное строительство», №5, 2018, с. 40-47.
9. Салам-заде А.В. Архитектура Азербайджана в XVI-XX вв. Баку. Изд-во АН Азерб. ССР, 1964, 255с.
10. Салам-заде А.В., Садыхзаде А.А. Жилые здания в Азербайджане в XVIII-XX веках, Баку. 1961, с. 11-13.
11. Фатуллаев Ш.С. Модерн в Архитектуре Баку.//ИАНА.- Сер. Лит ,яз и искусства. 1979, №1, с. 111-117.
12. Фатуллаев Ш.С. Архитектура Баку на рубеже XIX-XX вв.//ИАНА.- Сер.обществ. наук. 1961, №6, с.34-36.
13. Фатуллаев Ш.С., Магеррамов О.С. К истории развития интерьеров зданий Баку XIX-XXвв. Баку. Издательство НАНА, 2003, Сборник №1, с 22-30.
14. Тагиев Ф.А.История города баку в первой половине XIX века (1806-1859). Баку: Элм, 1999. 196 с.
15. Ш.С.Фатуллаев «Градостроительство и архитектура Азербайджана XIX- начала XX века». Л., 1978.
16. Архитектура Азербайджана. Баку: АН Азерб. ССР, 1952. 674 с.
17. Алиева А. Художественная обработка дерева. Баку: Язычы, 1983. 27 с.

SİYASİ İDEOLOGİYA VƏ ONUN ELMİ DƏRKİ

Dos. Dr. Qasımova Təzəgül Mirzə Qızı
Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu
Fəlsəfə Üzrə Fəlsəfə Doktoru, Böyük Elmi İşçi, Dosent

Qeyd etmək lazımdır ki, ideologiyanın mənbəyi, kökləri daha qədim tarixə malikdir. Əvvəllər bu vəzifəni din, daha sonra Yeni dövrdə fəlsəfi nəzəriyyə və doktrinalar, daha sonrakı dövrlərdə və hazırda tədricən sistemli və sxematik xarakter alaraq təkmilləşən müasir ideologiyalar yerinə yetirir. Müxtəlif dövrlərdə ideologiyaların yeri və rolu durmadan dəyişir. Fərqli siyasi funksiyaları həyata keçirən ideologiyalar, ilk növbədə cəmiyyətin böhran yaşadığı dövrdə onu mobilizə edə bilir, problem azalmağa başladığı dövrdən isə ideoloji konsepsiyalara maraq sönməyə başlayır.

İdeologiyanın mahiyyətini dərk etmək, anlamaq üçün ilk öncə "ideya", "ideyalılıq" anlayışlarına nəzər yetirmək lazımdır. İdeya şüur və təsəvvürlə bağlı olan bir anlayışdır. Bu anlayışın kökləri antik dövrə təsadüf edir. Antik dövr mütəfəkkirlərinin fikirlərinə nəzər yetirək. Demokrit atomları ideya adlandırıb, Platona görə isə ideya obyektiv reallıqdır. Marksa görə ideya - obyektiv aləmin proses və qanunauyğunluqlarının, şeylərin və hadisələrin əks olunmasıdır. Engels hesab edir ki, bütün ideyalar təcrübədən götürülmüşdür. Leninə görə isə ideya gerçəkliyi dərk etməyin ən yüksək nəzəri formasıdır. İdeya əsasında ideologiya formalaşır. İdeyadan kənarda heç bir insan yoxdur. Çünki hər bir insan bu və ya digər ideyanın mənbəyi və tərəfdarı olur. Məhz bu zaman da "ideyalılıq" anlayışı yaranır. İdeyalılıq isə müəyyən ideyalar sisteminə tərəfdar olmaq, sadiq qalmaqdır. Bu anlayışın sadə məntiqi sxemi dərketməni daha da asanlaşdırar. İdeya ⟶ İdeyalılıq ⟶ İdeologiya

İdeyalılıq mənəviyyatın əsasıdır. İdeya, ideyalılıq əsasında ideologiya formalaşır. İdeologiya siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi baxışları özündə birləşdirən baxışlar sistemidir. İdeologiya anlayışının altında insanların bir-birinə qarşılıqlı münasibəti, sosial problemlər, konfliktlər dərk edilir və qiymətləndirilir. İdeologiya həmçinin ictimai münasibətlərin tam bir sistemə salınmış əksidir. Tarixən bizə məlumdur ki, hər bir ideologiya özünə uyğun əxlaq sistemini yaradır, demək olar ki hər zaman onu öz təsiri altında saxlayır və

onun xidmətindən istifadə edir. İdeologiya özünün istəyinə, məqsədinə müvafiq siyasi sistem formalaşdırır və hazırlayır.

İdeologiya termini qədim yunan mənşəlidir, elmi dövriyyəyə XVIII əsrin sonlarında fransız maarifçisi Antuan de Trasi gətirmişdir. Həmin dövrdə bu anlayışın yaranması heç də bundan əvvəlki dövrlərdə ondan istifadə edilməməsinə dəlalət etmir, çünki siyasətin rasional əsası kimi bütün cəmiyyətlərdə ona ehtiyac var idi və bu da bəlkə də zamanın tələbi idi. Maarifçilik dövrünə qədər əsrlər boyu ideologiyanın funksiyasını din yerinə yetirirdi. İdeologiyanın formalaşması modernləşmə - bəşəriyyətin ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid prosesi ilə bağlıdır və XV-XVIII əsrlərdən başlamış, XIX-XX əsrlərdə bütün ölkələrə yayılmışdır. İdeologiya termini yaranana qədər ideyaların tarixi ilə məşğul olan alimlərdən Didro, Holbax, Helvesi, Lamerti kimi fransız maarıfçilərinin adlarını qeyd etmək olar. XIX-XX əsrlərdə isə Kont, Marks, Dürkheym, Veber, Pareto, Parsons və başqa alimlər isə artıq ideya yox, ideologiyanın təbiəti və problematikası ilə məşğul olmuşdular.

Siyasi ideologiyanın mahiyyətini, elmi dərkini açmaq üçün isə siyasi süurdan başlamaq lazımdır. Siyasətin subyektiv tərəfini səciyyələndirən əsas kateqoriya siyasi şüurdur. Şüurun bu sahəsi insanların siyasi sahədə davranışını və bu davranışı müəyyən edən dəyərləri, əqidələri, emosiyaları əhatə edir. Siyasi şüurun mövcudluğunun əsas formaları **siyasi ideologiya və siyasi psixologiyadır.** Siyasi ideologiyanın mahiyyəti məsələsi mübahisəli və ziddiyyət doğuran bir məsələdir. Bu anlayış **cəmiyyət, kütlə, qrup, lider, siyasi davranış, hakimiyət, maraq, tələb, bilik** kimi məfhumlarla birgə təhlil olunmalıdır. Bu zaman sistem yaranır: Ideologiya-siyasət-əxlaq. Bu bir blokdur və dərketməyə kömək edir. Hər bir ideologiya çalışır ki, daha geniş insan kütləsini özünün yaratdığı siyasət məkanına cəlb etsin. Bundan sonra isə özünün yaratdığı əxlaq normalarını onlara, yəni kütləyə qəbul etdirsin. Siyasi ideologiya siyasi davranışın və siyasi dünyagörüşün əsaslarını səciyyələndirir və **addımlar strategiyasını** əks etdirir. Bu xüsusiyyətlər liberalizmə, konservatizmə, marksizmə, sosial-demokratiyaya və faşizmə aiddir. Siyasi ideologiyanın formalaşmasının 4 modeli - kodensasiya, inteqrativ, divergent və revitalizasiya modelləri mövcuddur (1). Bu modellərə nəzər yetirək. Birinci model kondensasiya modelidir. Burada əsas diqqət kütləvi şüura yönəlir. Bu modelin mexanizminə əsasən, kütləvi şüurun özünəməxsus kondensasiyasının nəticəsində ona aid təsəvvürlər ideoloji strukturlara çevrilir. İkinci model isə inteqrativ modeldir. Bu model üçün xas olan əsas əlamət ideya-siyasi cərəyanların, ideya və təsəvvürlərin sintezidir. Üçüncü modelə diqqət yetirək: Divergent model. Bu modeldə mövcud ideologiya parçalanır və nəticədə yenisi formalaşır. Sonuncu model revitalizasiya modelidir. Bu modelə qayıdış modeli də desək, səhv etmərik.

Çünki, bu model vasitəsilə köhnə ideyalara qayıdış baş verir, yəni onlar yeni formada "doğulur", dirçəlir.

Siyasi ideologiyanı təhlil etmək üçün özümüz qurduğumuz anlayış aparatına nəzər yetirəndə siyasi davranışı kənarda qoymaq olmaz.

Siyasi ideologiya siyasi davranışın məqsəd və ideya istiqamətlənməsinə xidmət edir. Onun 3 səviyyəsini qeyd etmək olar. Birinci - nəzəri konseptual, ikinci - proqram-siyasi, üçüncü - aktullaşdırılmış. Nəzəri-konseptual adlanan səviyyədə kütlənin, təbəqənin, millətin, dövlətin maraq və ideyalarını açıqlayan əsas fikirlər, müddəalar yaranır, meydana çıxır. İkinci səviyyə proqram - siyasi səviyyədir ki, burada siyasi qərarlar qəbul olunur və normativ əsas formalaşır. Üçüncü aktuallaşdırılmış səviyyədir. Bu səviyyədə ideologiyanın mənimsənilməsi variantları formalaşır. Qeyd etdiyimiz səviyyələrdə əsas müddəalar formalaşır, eyni zamanda siyasi davranışı formalaşdıran normativ əsas yaranır və sonda siyasi iştirakın əsas məqsəd və prinsipləri bu və ya dıgər formada səciyyələnir.

Bu anlayışın dərkində digər bir əlaqəni yaddan çıxarmaq olmaz. **Siyasi ideologiya və kütləvi siyasi psixologiya** bir-biri ilə qarşılıqlı əlaqədədir. Yəni - dəyərlər və praktik fəaliyyət proqramları formasında olan siyasi həyatın subyektlərinin maraq və məqsədlərini ifadə edən baxışların məcmusu (siyasi ideologiya) və siyasi həyatın təcrübəsi əsasında geniş əhali kütləsi içərisində yaranan və əhval-ruhiyyədən, ümiddən və stereotiplərdən ibarət olan kütləvi siyasi psixologiya. Siyasi psixologiya insanların psixologiyası ilə birləşərək fəal şəkildə cəmiyyətə təsir edir. Əgər ideologiya nəzəri düşüncənin məhsuludursa, onunla yanaşı adını qeyd etdiyimiz siyasi psixologiya isə insanların öz aralarında və hakimiyyət institutları arasında formalaşan praktik əlaqələr prosesinin nəticəsidir. Siyasi ideologiyanın və siyasi psixologiyanın məzmununda insanların gündəlik maraqlarını əks etdirən şüurun hissi və emosional elementlərini görmək olur. Siyasi ideologiya siyasi psixologiyaya təsir edərək onu rasionallaşdırır.

Bu və ya digər ideoloji cərəyanların cəmiyyətin ideya-siyasi həyatında rolu və yerini təhlil edərkən ideologiya ilə siyasətin qarşılıqlı əlaqəsinin iki tərəfini unutmaq olmaz. Bu iki tərəf, bu iki aspekt dərketməni daha da asanlaşdırar. Birincisi - ideoloji baxışların siyasi həyata və siyasətin özünə təsiri (nəticədə yeni siyasi kurs formalaşır), ikincisi isə siyasi proseslərin sosial icmaların ideoloji baxışlarına təsiri.

İdeoloji təsirin yayılmasından, formalaşmasından bəhs etdiyimiz zaman **təbliğatı** yaddan çıxarmaq olmaz. Təbliğatın vəzifəsi insanlarda siyasi davranışın müəyyən növünə hazırlığı formalaşdırmaqdan ibarətdir. Eyni zamanda təbliğat birbaşa siyasi psixologiya ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir (2).

İdeologiyaların fəaliyyət göstərməsinin əsas elementlərindən biri də onların siyasi məkanda qarşılıqlı əlaqədə olmasıdır. Buna ideoloji diskurs da deyilir. Siyasi ideologiyanın dərki zamanı qurduğumuz anlayış ardıcıllığına yeni bir məfhum da daxil oldu. Bu da ideoloji diskurs məfhumudur (4). Bu diskurs iki istiqamətdə gedir: məsafə saxlamaq və ya yaxınlaşmaq xətti üzrə. Biri gərginliyə, digəri isə stabilliyə səbəb olur. İdeologiyaların qarşılıqlı əlaqələri yeni ideyaların, baxışların formalaşmasına şərait yaradır. Məsələn, nəzər yetirək. Avropa ideya-siyasi cərəyanları yerli liberalizm və konservatizmin formalaşmasına mühüm təsir göstərmişdi, rus ictimai düşüncənin bu istiqamətləri aralarında qarşılıqlı təsirləri isə onların inkişafı və konservatizm liberalizmin yaranmasına səbəb olmuşdur. Sonralar isə millətçi-konservatizm, faşizm, klassik liberalizm, sosial liberalizm və s. bir-birinə çevrilərək formalaşdılar. Nəhayət, onu da qeyd edək ki, ideologiyaların sintezi prosesi onların arasında fərqlərin azalmasına və qismən dəyərsizləşməsinə də gətirib çıxara bilər.

Məlumdur ki, bütün problemlər **tələbatdan** yaranır. Düşüncə, fəaliyyət, daxili və xarici aləm – bu anlayışlar bir-birilə qarşılıqlı əlaqədədir və onlar da tələbatdan doğur. Sonda isə nəticə qiymətləndirmə istəyir. İdeologiyanın formalaşmasında bu anlayışı da unutmaq olmaz. Yəni ideologiyanı **tələb** doğurur. Bu fikir müxtəlif suallar formalaşdıra bilər. **Zaman yoxsa, tələb?**

Bütün problemləri tələbat doğurur. Artıq bu bizə məlumdur. Ancaq bütün problemlərin həlli yolları mürəkkəb və fərqlidir. Ən düzgün yol seçmək isə dərin düşüncəli, əxlaqlı şəxslərə məxsusdur. Bu da siyasi ideologiyanın dərkində əsas rola malik olan növbəti məfhum liderin rolu haqqında bizi düşünməyə vadar edir. Liderin rolu bu prosesdə danılmazdır.

Tələbat nəticə, ehtiyac ilə sıx bağlıdır. Daxili və xarici mühit birbaşa düşüncəyə, fəaliyyətə təsir göstərir və bu qarşılıqlı əlaqə birbaşa tələbata doğru istiqamətlənir. Tələbatlar iki hissəyə bölünür. Bazis tələbat və törəmə tələbat. Mənəviyyat, əxlaq, qələbə, gözəlliyə meyl - bunlar hamısı törəmə tələbatdır. İnformasiyanın olması təhlükəsizlik, nəslin inkişafı isə bazis tələbatdır. Bunlar da hamısı birbaşa mənəviyyatla bağlıdır, nəticə və qiymətləndirmə tələb edir.

Beləliklə, mahiyyətinin dərki çətin olan siyasi ideologiya cəmiyyət, hakimiyyət, bilik və s. kimi məfhumlarla birgə yüksək səviyyədə yerləşir və düşüncənin bir növü kimi siyasi və sosial inkişafa qrupun münasibətini əks etdirir (3). Cəmiyyətin sosial strukturlaşması hakim münasibətlərin mühüm elementi olan sistemləşdirilmiş, nəzəri cəhətdən formalaşmış sosial-qrup düşüncə vasitəsi kimi siyasi ideologiyaya ehtiyac yaradır. Təhlil zamanı ardıcıllıq qorunub saxlanılırdı. Bu ardıcıllığa nəzər yetirəndə görürük kü, tələbat mənəviyyatı doğurur, tələbat da ehtiyacdan yaranır və yaxud da həm ehtiyac, həm də tələbat bir-birlərinə yaxın və yaxud da uzaq olurlar. Bu uzaqlıq da onları fərqləndirir.

İdeologiyaların tarixi bəşəriyyətin inkişaf tarixidir. Məhz buna görə də hər bir ideologiya cəmiyyətin müəyyən inkişaf mərhələsinin məhsulu kimi meydana çıxır. Onun mövcud olma və təsiretmə müddəti onu doğuran zamanın, dövrün yaşama müddətinə uyğun olur. Dövr, zaman dəyişəndə bir ideologiya başqası ilə əvəz olunur. Bu o demək deyil ki keçmişə ötürülən itir, həmin o keçmişə ötürülən ideologiyanın təsirləri insan şüurunda, davranışında öz izini buraxır.

Açar sözlər: Siyasi ideologiya, siyasi psixologiya, ideya, ideyalılıq, ideologiya, tələb, siyasi diskurs

İstifadə olunmuş ədəbiyyat

1. Sirota N.M. İdeologiya və siyasət. Bakı, 2013
2. Qaralov Z. İdeologiya və mənəviyyat. Bakı, 2008
3. Алексеева Т. Насилие и демократия в политике США // Международные процессы. Май-август 2008, Т.6, № 12
4. Гаджиев К.С. Политическая идеология: концептуальный аспект // Вопросы философии. 1998, № 12

FROM AFGHANISTAN TO TURKEY: TRANSFORMATION OF KYRGYZ WOMEN'S RIGHTS

Gulmiza SEITALIEVA, PhD, Associate Professor

Head of Philosophy Department of the International University of Kyrgyzstan

ABSTARCT

The event called the great outcome happened in 1978. That event concerns to the hasty migration of the Kyrgyz and some other Turkic-speaking peoples from Afghanistan to Turkey. The tragic passage through the Pamir's Mountains of Hindu Kush and Karakorum, and then temporary residence in the camps of Pakistan, claimed the lives of more than 300 Kyrgyz. Women experienced this event especially hard. However, the life of Kyrgyz women in the Afghan Pamir was more difficult and tragic. Detailed studies of the life of the Kyrgyz people in the Afghan Pamir show a very high mortality rate among women. The main reasons for which are harsh climate, extreme unsanitary conditions, inaccessibility of medical services and various diseases. An equally serious cause of the high mortality rate for women is early marriage and childbirth. Girls are married at nine, twelve and thirteen years old. The average life of women does not exceed 40 years. Since the Kyrgyz profess Islam in its medieval form, a woman is considered the property of family along with any things and cattle.

The invasion of Soviet troops into Afghanistan was the main impetus for the emigration of the Kyrgyz from the Afghan Pamir to Pakistan, and then Turkey. The life of Kyrgyz women who began a new life in Turkey has changed dramatically. Thanks to the help of the Turkish government, NGOs and the local population, women began to receive regular medical care, education, the opportunity to acquire a profession and their own earnings. Women acquired the same rights as men. Discrimination against women within the Kyrgyz community began to decline. She returned her dignity of being human.

The experience of Kyrgyz women in the Afghan Pamir and Turkish village Ulu Pamir Koyu is a vivid demonstration of how the change in the socio-economic conditions and the main political orientation of a state (secularity or religiosity) influences on the entire socio-economic structure of society. As result, women status in society and their rights also is changing.

Keywords: women's rights, discrimination, woman as property, early marriage, polygamy, levirate, Afghan Pamir, great outcome, Kyrgyz migration, Ulu Pamir Koyu, society structure, basis and superstructure

ОТ АФГАНИСТАНА ДО ТУРЦИИ: ТРАНСФОРМАЦИЯ ПРАВ КЫРГЫЗСКИХ ЖЕНЩИН

Сейталиева Гульмиза Аскарбековна, кандидат философских наук, доцент,
заведующая кафедрой Философии Международного Университета Кыргызстана

АННОТАЦИЯ

В 1978 году произошло событие, получившее название великий исход. Оно связано со спешной миграцией кыргызов и некоторых других тюркоязычных народов из Афганистана в Турцию. Трагический переход через памирские горы Гинду-Куш и Каракорум, а затем временное проживание в лагерях Пакистана, унес жизнь более 300 кыргызов. Особенно тяжело пережили это событие женщины. Однако, жизнь кыргызских женщин на афганском Памире была не менее тяжелой и трагичной. Подробные исследования жизни и быта кыргызов Афганского Памира показывают очень высокий уровень смертности среди женщин. Основными причинами которой являются природно-климатические условия, полная антисанитария, недоступность медицинского обслуживания и различные болезни. Такой же серьезной причиной высокой смертности женщин являются ранние браки и роды. Девочек отдают замуж в 9, 12-13 лет. Средняя продолжительность женщин не превышает 40 лет. Поскольку кыргызы исповедуют ислам в его средневековой форме, женщина считается собственностью данного рода и семьи наряду с любыми вещами и животными.

Вторжение Советских войск в Афганистан стал основным толчком эмиграции кыргызов из афганского Памира в Пакистан, а затем Турцию. Жизнь кыргызских женщин, начавших новую жизнь в Турции, изменилась кардинально. Благодаря помощи турецкого правительства, НПО и местного населения, женщины стали получать регулярное медицинское обслуживание, образование, возможность приобрести профессию и собственный заработок. Женщины приобрели те же права, что и мужчины. Дискриминация женщин внутри кыргызского сообщества стала нивелироваться. Ей вернули достоинство быть человеком.

Опыт женщин-кыргызок Афганского Памира и Турецкого Улу Памир Койю является яркой демонстрацией как изменение социально-экономических условий, и основной политической ориентации того или иного государства (светскости или религиозности), коренным образом меняет всю социально-экономическую структуру общества. И прежде всего положение женщины в обществе, как яркой характеристики того, каким является данное общество.

Ключевые слова: права женщин, дискриминация, женщина как собственность, ранние браки, полигамия, левират, Афганский Памир, великий исход, миграция кыргызов, Улу Памир Койю, структура общества, базис и надстройка

В судьбе памирских кыргызов Афганистана произошло два важных события, которые кардинально изменили права женщин и их социальный статус.

Оба раза на права женщин оказали политические события и последовавшие социально-экономические условия в которых оказались кыргызы в результате двух больших миграций.

В 1917 году в Туркестане произошла Великая Октябрьская социалистическая революция. Она кардинально изменила судьбу всех женщин – мусульманок Средней Азии, подарив ей полную эмансипацию и наделив реальными правами как в политической, культурной, так и в социально-экономической сферах. Однако не всем кыргызским женщинам повезло обрести свои права.

Первая миграция кыргызов произошла еще до революции 1917 года, а затем после нее. Часть кыргызов, в поисках лучшей судьбы, мигрировала на Афганский Памир, что и предопределило судьбу и права женщин-кыргызок Афганского Памира. Этот период связан с превращением женщины в детородную машину и домашнюю рабыню. Она оказалась лишенной возможности получать образование и медицинское обслуживание. У нее не было понимания, что она может обладать личностными правами.

Вторая волна миграции произошла в 1978 году, когда кыргызы покинули Афганистан и перебрались сначала в Пакистан, а затем Турцию. Жизнь кыргызских женщин, начавших новую жизнь в Турции, изменилась кардинально. Благодаря помощи турецкого правительства, НПО и местного населения, женщины стали получать регулярное медицинское обслуживание, образование, возможность приобрести профессию и собственный заработок. Женщине вернули ее достоинство быть человеком.

В это же время женщины-кыргызки Афганского Памира до сих пор продолжают влачить жалкое существование в условиях средневекового патриархата.

Актуальность темы связана с тем, что бесправное положение женщин оказывает самое пагубное влияние на все общество, на его культурное, социальное и экономическое развитие и благосостояние. Женщины составляют половину населения любого народа и государства. Они являются таким же величайшим человеческим капиталом, как и мужчины. Женщины, также, как и мужчины являются строителями своей нации и государственности.

Исторически сложившееся разделение труда и экономическое неравенство мужчин и женщин сделали последних послушным бытовым орудием первых. Эмансипация женщины и наделение ее правами невозможна без энергии мужчин, являющихся представителями власти, олицетворяющей тот или иной государственный строй. Поэтому, борьба за права женщин должна осуществляться при активной поддержке мужчин и государства.

Основной целью данной статьи является анализ влияния социально-политических и хозяйственно-экономических условий жизнедеятельности того или иного народа на права женщин.

Опыт женщин-кыргызок Афганского Памира и Турецкого Улу Памир Койю является яркой демонстрацией как политические и социально-экономические условия предопределяют права и статус женщин.

Основными методами данного исследования являются метод исторической реконструкции, а также сравнительный анализ общественно - политической и хозяйственно-экономической жизни афганских и турецких кыргызов и их влияние на становление и состояние прав женщин. Основным источником для анализа взята книга профессора Университета Блумингтон Назифа Шахрани: The Kyrgyz and Wakhi of Afghanistan: adaptation to closed frontiers and war. Перевод отдельных отрывков книги сделан автором статьи – Сейталиевой Г.А.

В статье также использован марксистский подход к пониманию соотношения экономического базиса и правовой надстройки.

Первая волна миграции кыргызов на афганский Памир прошла еще в XIX веке. Британский офицер и исследователь сэр Аурель Штейн в 1906 году, во время своего путешествия по Малому Памиру пишет, что уже в 1895 году “сто с лишним кыргызских семей пересекли границу между Царской Россией и Афганским Памиром… и до сих пор обитают там” [Shahrani 2002, 38].

Следующая волна миграции на Афганский Памир продолжилась в 1898 году после подавления Андижанского восстания русской армией. В этом восстании кыргызы приняли самое активное участие [Shahrani 2002, 38]. Как отмечает Крэйдер, это было движение тюркских племен против российского колониализма [Krader 1971, 89-92]. “В 1916 году произошло основное восстание почти всех тюркских народов Центральной Азии в ответ на некоторые репрессивные изменения военного времени в царской колониальной политике в отношении народов региона” [Shahrani 2002, 39]. В данном случае речь идет о событиях, которые известны в истории Кыргызстана как Уркун. Основной причиной восстания кыргызов в 1916 году стала отправка кыргызских мужчин, которые были основными добытчиками в своих семьях, на войну России против Германии и Англии. После Октябрьской социалистической революции это движение не прекратилось, но переросло в движение, известное под названием басмачество. Басмачество не признало социалистические преобразования в политике и экономике. Защищая Кокандское Автономное правительство Ферганы, оно защищало свои классовые интересы, интересы биев против экспроприации своих богатств со стороны Советской власти. Данное движение продолжалось вплоть до 1930 годов. Хан Кыргызов Рахман Кул принадлежал к зажиточному роду. Сначала его отец и затем сам хан возглавили миграцию кыргызских семей из Советской Киргизии. Крэйдер пишет, что после кровавой расправы участников восстания 1916 года, “более 300 000 казахов и кыргызов убежали в Кашгар и Кульджу в Китайском Туркестане” [Krader 1971, 108].

Однако не все кыргызы остались в китайском Туркестане. Некоторые из них перебрались на Афганский Памир. Таким образом, группа кыргызов оказалась на афганском Памире. Другая часть мигрировала уже после установления советской власти на территории Советской Киргизии. Основная часть кыргызов бежавших от Советской

власти были достаточно зажиточными и пытались избежать экспроприации своих богатств. Таким образом, более 1800 кыргызов перебрались на Памир и с тех пор обосновались там.

Кыргызы, мигрировавшие в Афганистан добровольно выбрали недоступные и необитаемые территории Афганского Памира, расположенные на высоте от 3500 до 4500 м над уровнем моря. Климатические условия Верхнего и Малого Памира являются суровыми не только для проживания человека, но и для флоры и фауны. Зима и лютые морозы господствуют здесь почти 10 месяцев в году. Лето длится два месяца. Вся растительность выжигается лютым холодом и жарким летним солнцем.

